Gəncə Dövlət Universiteti

Rektor: Y.Ə.Yusibov
GDU Elmi Şurasının 24 iyun 2023-cü il
tarixli iclasında (Pr. №09) təsdiqlənmişdir.

# KEYFİYYƏT TƏMİNATI SİSTEMİ HAQQINDA DİREKTİV

GƏNCƏ - 2023

## 1. Keyfiyyət Təminatı Sistemi Siyasəti

Gəncə Dövlət Universiteti (GDU) Strateji Planına uyğun olaraq, maraqlı və iştirakçı tərəflər üçün demokratik şəraiti, öyrənmə idarəetməsini, korporativ planlaşdırmanı, elmi və texnoloji tədqiqatları, innovasiya və sahibkarlığı, beynəlmiləlləşməni, sosial töhfəni, müasir idarəetmə sistemini və dayanıqlı inkişafı təmin etməni məqsədi bilir. Bu məqsədinə uyğun olaraq, bütün maraqlı tərəflərin qəbul etdiyi ümumi düşüncə işığında davamlı təkmilləşdirmənin təmin edilməsi və səmərəliliyin artırılması prinsipinə əsaslanan korporativ universitet olmaqdır. Bunun üçün orijinal və qabaqcıl keyfiyyət təminatı məqsədlərini özündə ehtiva edən fəaliyyəti həyata keçirməyi öz vəzifəsi sayır. Keyfiyyət Təminatı Siyasətinə (KTS) uyğun olaraq universitet daxilində keyfiyyət təminatı mədəniyyətinin geniş yayılmasını hədəfləyir. Keyfiyyət siyasətinin təminatı elementlərindən biri universitet keyfiyyət siyasətinin və strategiyasının bütün maraqlı tərəflər tərəfindən mənimsənilməsinə çalışılmadır. Bu səbəblə akademik heyətə akademik məsələlərdə, inzibati heyətə isə inzibati məsələlərdə keyfiyyət təminatını bir mədəniyyət olaraq mənimsəməsini təlgin edir. Bu çərçivədə qurumda təhsil, tədqiqat, sosial töhfə, beynəlmilləşmə və idarəetmə sahələrində keyfiyyət mədəniyyətinin yaradılması, onun davamlı olması və təkmilləşdirilməsi istiqamətində fəaliyyətlərin davamlılığının təmin edilməsi strategiyası əhəmiyyətli hesab edilir.

GDU öz missiya, vizyon və dəyərlərinə uyğun olaraq strateji məqsədlərinə çatmaq üçün bütün struktur və bölmələrin üstün keyfiyyətinə diqqət yetirmək, fəaliyyətlərini universal elm, etik prinsiplər və qanunlara əsaslanan beynəlxalq standartlara və hüquqi qaydalara uyğun həyata keçirmək və iştirakçı idarəetmə yanaşması ilə prosesə daxili və xarici maraqlı tərəfləri cəlb etmək üçün, davamlı və qabaqlayıcı yanaşma və təkmilləşdirməyə əsaslanan, fəaliyyət göstəriciləri ilə təkmilləşdirilmə və davamlılığın ölçülməsinə əsaslanan, cəmiyyətə və ətraf mühitə həssas olan Keyfiyyət Təminatı Sistemini qəbul edir. Bu sistem Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.28-ci maddəsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 493 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisəsinin akkreditasiya qaydaları"na, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2022-ci il 30 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"na və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə meyarları"na, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"a (ESG), Gəncə Dövlət Universitetinin Nizamnaməsinə, Keyfiyyətin Təminatı Mərkəzinin Nizamnaməsinə, qüvvədə olan digər qanun və sərancamlara əsasən yaradılır.

Bu istiqamətdə əsas siyasətimiz;

- Keyfiyyət təminatı sistemində bütün maraqlı tərəflərin iştirakını təmin edərək məmnunluq və aidiyyət hissini inkişaf etdirmək,
- İxtisaslı tədqiqat və inkişaf tədqiqatları və ixtisaslı tədqiqatçıların işə götürülməsi,
- Təhsil və təlimdə keyfiyyət və tələbə yönümlü yanaşma,
- Beynəlmiləlləşmə,
- Korporativ risklərin idarə edilməsi strategiyasını saxlamaq,
- Fənlərarası proqramların, tədqiqat və inkişaf işlərinin gücləndirilməsi,
- İnsan resurslarının bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi,
- Araşdırmanın, tədqiqatın və təhsilin milli və beynəlxalq akkreditasiyası,
- Milli və beynəlxalq reytinqlərdə daha yüksək səviyyələrə çatmaq,
- Sosial həssaslıq prinsipi ilə hərəkət edərək sosial məsuliyyət layihələri hazırlamaq,
- Təhlükəsiz, sağlam və dinc iş mühitini təmin etmək,
- Resurslardan səmərəli istifadə,
- Davamlı monitorinq, qiymətləndirmə və təkmilləşdirmə,

Bu siyasətlər müvafiq qanunvericiliyin və standartların tətbiqinə və onların davamlılığının təmin edilməsinə əsaslanır.

KTS keyfiyyət siyasəti əsasında formalaşmış Strateji Plana və onun məqsədlərinə uyğun olaraq universitet daxili və xarici Keyfiyyət Təminatı Sistemini qurmaq, institusional göstəriciləri müəyyən etmək, keyfiyyət sisteminin fəaliyyətinə nəzarət etmək, bu çərçivədə aparılacaq işləri həyata keçirmək üçün bütün akademik və inzibati vahidləri təmsil edən sistemdir.

KTS müəyyən edilmiş daxili və xarici keyfiyyət standartlarına uyğun olaraq keyfiyyət və performans proseslərinin tam yerinə yetirilməsini təmin etmək üçün hədəflərin qoyulması, proseslərə nəzarət, nəticələrin qiymətləndirilməsi, monitorinqi və təkmilləşdirmələrdən ibarət planlı və sistemli fəaliyyətlər dövrüdür.

## 2. Keyfiyyət Təminatı Sisteminin strategiyaları

GDU-nun Keyfiyyət Təminatı Sistemi ilə bağlı əsas strategiyaları aşağıdakılardır;

- Bütün akademik və inzibati heyətin, tələbələrin, məzunların və digər maraqlı tərəflərin KTS bir hissəsi kimi prosesdə fəal iştirakının təmin edilməsi,
- Təhsil/təlim siyasətləri və qiymətləndirmə standartları müəyyən edilərək universitetin bakalavr və magistr proqramlarının akkreditasiyasına imkan verəcək proseslərə başlanması,
- Daxili və xarici keyfiyyət təminatı sistemini strukturlaşdırmaq,

- Akademik, inzibati heyət və tələbələr də daxil olmaqla bütün maraqlı tərəflərin məlumatlılığını və iştirakını artırmaqla keyfiyyət təminatı mədəniyyətini yaymaq,
- Universitetin təhsil, tədqiqat, sosial, sahibkarlıq və institusional potensialının inkişaf etdirilməsi,
- Keyfiyyət təminatı sistemi proseslərinin davamlı monitorinqi, ölçülməsi və təkmilləşdirilməsi,
- Proqramın akkreditasiyası üzrə fəaliyyətlərin genişləndirilməsi və bütün akademik bölmələrin milli/beynəlxalq akkreditasiyalar almasını təmin etmək.

## 3. Keyfiyyət Təminatı Sisteminin əhatə etdiyi sahələr və siyasətlər

Universitetdə davamlı təhsil, tədqiqat, elm, sosial töhfə, beynəlmiləlləşmə və idarəetmə xidmətlərinin təkmilləşdirilməsi üçün Keyfiyyət Təminatı Sistemi aşağıdakı sahələri əhatə edir:




Təhsil və təlim, elm və tədqiqat, sosial töhfə və cəmiyyət, beynəlmiləlləşmə və rəqabətlilik, idarəetmə və xidmətlərlə bağlı bütün proseslərin

standartlaşdırılmış şəkildə həyata keçirilməsini təmin etmək üçün ümumi qaydalar, prinsiplər müəyyən edilir, planlaşdırma aparılır və icra olunur.

**1. Təhsil və təlim** – Universitetdə mövcud olan ixtisaslara qəbul olan tələbələrin müəyyən biliyə və keyfiyyətə yiyələnmiş və yaxşı hazırlanmış mütəxəssislər kimi məzun olmalarını təmin etmək məqsədi daşıyır. Təlim və öyrənmənin keyfiyyətinin artırılması üçün dərslərdə müasir təlim nəzəriyyələrinin, təhsil texnologiyalarının və metodlarından istifadə edilməsi əsas vəzifə sayılır. Müəllimlərin keyfiyyətli təlim materialları hazırlaması və düzgün təlim strategiyalarından, düzgün qiymətləndirmə metodlarından istifadə etməsi əsas şərtlərdir. Tədris proqramlarını təkmilləşdirmək üçün düzgün idarəetmə və qiymətləndirmə vasitələrinin seçilməsinə dəstəyin verilməsi önəm kəsb edir. Dərs zamanı motivasiyanı artırmaq üçün müəllimlərin bacarıqlarının gücləndirilməsi vacib sayılır. Təhsil, tədqiqat və təcrübələri fənlərarası yanaşma ilə yaymaq planlaşdırılır. Təhsil və təlimdə ən son və qabaqcıl metod və texnikaları tətbiq etmək, texnologiyadakı dəyişiklikləri öyrənmək və tətbiq etmək üçün bütün müəllimləri ixtisasartırma kurslarına cəlb etmək hədəflənir.

Kurrikulumun yaradılması, yenilənməsi, təsdiqi və icrası prosesləri tələbə mərkəzli olmaq şərti ilə müəyyən edilir və idarə olunur. Proseslərin müəyyən edilməsində təlim nəticələri və ehtiyacları, təlim resursları, tələbə nailiyyətlərinin səviyyəsi və inkişafında qiymətləndirmə üsulları nəzərə alınır.

**2. Tədqiqat və elmi inkişaf** – Ölkəmizin elmi, sosial-mədəni və tarixi zənginliyini bəşəriyyətin xidmətinə təqdim etmək məqsədilə elmi araşdırmalar aparmaq vacib sayılır. Bu səbəblə qlobal elmi məkana inteqrasiya, elmi əqli potensialın gücləndirilməsi və elmi nəşrlərin beynəlxalq standartlara uyğunlaşdırılması əsas hədəflərdir.

Universitetdə kəşf olunan yeni ixtiraları və patentləri cəmiyyətin xidmətinə təqdim etmək üçün prosedurların hazırlanması planlaşdırılır. Professor-müəllim heyətinin kitab, kitab fəsilləri və elmi məqalələri yazması, konfranslara məruzələr təqdim etməsi, məşhur sənət əsərləri və tamaşalar təqdim etməsi, sərgilər açması, müsbət rəylər alması, ixtiralarına patent verilməsi, müsabiqələrdə dərəcələr alması işinin canlandırılması və mükafatlandırılması üçün təşviq mexanizimlərinin formalaşdırılmasına çalışılır. Yerli və xarici universitetlərdə tədqiqat qrupları və qurumlarla birgə layihələr yaratmaq və həyata keçirməyə çalışılır.

Professor-müəllim heyətinin və təhsilalanların seminarlar, konfranslar və görüşlər vasitəsilə uğurlu biznes və elm adamları, ilk növbədə öz sahələrinin peşəkarları ilə eyni mühitdə olmasına şərait yaradılır.

Tədqiqatın planlaşdırılması, dəstəklənməsi, yerinə yetirilməsi və monitorinqi prosesləri müəyyən edilir və idarə olunur. Bu proseslərdə resurslardan səmərəli istifadə nəzərə alınır.

**3. Cəmiyyət və sosial töhfə** - Cəmiyyətin əsas dəyərlərinin qorunması, sosial faydanın prioritetləşdirilməsi və sosial problemlərə həssas yanaşmanın təmin edilməsi əsas vəzifə kimi qəbul edilir. Bu zaman elmiliyin, tənqidin, etik dəyərlərin ön planda olduğu bərabərlik, etibarlılıq və rasionallıq prinsipləri əsas götürülür. Sosial məsuliyyət çərçivəsində, universitetin professor-müəllim

heyətindən gördüyü işlərlə cəmiyyətə fayda vermələri hədəflənir. Sosial töhfə çərçivəsində həyata keçirilən ictimai tədbirlərin və təlimlərin davamlılığına diqqət yetirilir. Bunun üçün sosial məsuliyyət layihələri və digər faliyyətlərə təşviq həyata keçirilir. Beynəlxalq, regional və milli inkişafa töhfə verən sosial layihələr inkişaf etdirilir. Tələbə təşkilatları və elmi cəmiyyətlərini, onların klublarını tədbirlərə həvəsləndirmək və dəstəkləmək üçün fəaliyyətlər həyata keçirilir və inkişaf etdirilir.

Professor-müəllim və tələbə heyəti tərəfindən həyata keçiriləcək fəaliyyətlər, sosial yönlü işlər və layihələr planlaşdırılaraq həyata keçirilir və qiymətləndirilməsi aparılır. Məqsəd, hədəf və nailiyyətlərə uyğun olaraq hər bir tədbirin və fəaliyyətin davamlı olaraq izlənməsi və təkmilləşdirilməsi həyata keçirilir.

**4. Beynəlmiləlləşmə və rəqabətlilik** - Universitetin beynəlxalq əməkdaşlığının inkişaf etdirilməsi, tanınmış universitetlərarası şəbəkələrə, təşkilatlara üzv olmaqla yanaşı, yeni akademik tərəfdaşlıq əlaqələrinin qurulması və beynəlmiləlləşmə üzrə inkişaf strategiyasından irəli gələn məsələlərin həllini özündə əhatə edir. Burada əsas məqsəd universiteti beynəlmiləl universitetə çevirməkdir. Bu məqsədlə əcnəbi tələbələrin universitetə cəlb olunması, beynəlxalq mübadilə proqramlarında iştirakın təmin edilməsi, beynəlxalq ikili proqramların təsis edilməsi, xarici dillərdə təhsil proqramlarının təsis edilməsi, akademik imkanların gücləndirilməsi, təhsil proqramlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması və beynəlxalq rəqabətliyin artırılması hədəflənir. Beynəlxalq arenada keyfiyyətli professor-müəllim heyəti üçün cəlbedici olmaq üçün çalışılır.

Eyni zamanda ölkə ərazisində fəaliyyət göstərən diplomatik nümayəndəliklər, beynəlxalq və yerli təşkilatlarla əməkdaşlığa da xüsusi diqqət yetirilir.

**5. İdarəetmə və xidmət** - İdarəetmənin təşkilati strukturu əslində özü bir sistemdir. Bu sistemin vəzifəsi isə, universitetin ayrı-ayrı yarım sistemləri, bölmələri, şöbələri, onların tərkibi, nisbəti, yerləşdirilməsi, asılılığı və qarşılıqlı əlaqəsinin gücləndirməsindən ibarətdir. Bu sistem ilk 4 sahə üçün inzibati və fiziki infrastrukturun hazır olmasını və sistemin bütövlükdə və yüksək səmərəliliklə işləməsini təmin etmək vəzifəsini daşıyır. İştirakçı, yenilikçi, təşəbbüskar, insan yönümlü, maraqlı tərəflərlə qarşılıqlı əlaqədə olan, ümumbəşəri, akademik və etik dəyərlərdən güzəştə getməyən, dəyişməyə açıq yanaşma və infrastruktura malik idarəetmə tərzinə üstünlük vermək və həyata keçirmək prinsipləri əsas sayılır. Bu sahədə əsas hədəflər nəticəyönlü və şəffaf idarəetmə modelinin yaradılması, insan, maliyyə və informasiya sahəsində idarəetmənin yaxşılaşdırılması hədəflənir. Bu səbəbdə, təşkilati idarəetmə strukturunun vəziyyəti və səmərəliliyi idarə olunan obyektin fəaliyyətini xarakterizə edən göstəricilərlə qiymətləndirilir. Bu göstəricilər mənfəət, gəlir, sosial inkişaf, əmək haqqı göstəricilərindən ibarətdir.

Tələbələrə, işçilərə və cəmiyyətə göstərilən xidmətlərlə bağlı proseslər müəyyən edilir və idarə olunur. Daxili nəzarət çərçivəsində müəyyən edilmiş proseslər üçün fəaliyyətləri, məsul şəxsləri, fəaliyyət göstəricilərini və monitorinq

üsullarını əks etdirən hərəkət sxemi hazırlanır. Proseslərə məsul bölmələr tərəfindən nəzarət edilir. Keyfiyyət təminatı sistemi çərçivəsində davamlı təkmilləşdirmə tədbirləri həyata keçirilir. Bu proseslərin təkmilləşdirilməsində daxili və xarici maraqlı tərəflərin gözləntiləri və rəyləri nəzərə alınır.

İnzibati struktur vahidləri və bölmələr illik fəaliyyətləri əsasında hesabatlar hazırlayır. Bu hesabatlar vasitəsilə hər bir bölmənin fəaliyyətinin qiymətləndirilməsi aparılır.

## 4. Keyfiyyət Təminatı Sisteminin modeli, metodu və komponentləri

Gəncə Dövlət Universitetində akademik və inzibati vahidlər və işçilər keyfiyyət təminatının yaradılması və istismarı ilə bağlı vəzifə öhdəliklərini öz üzərinə götürdükləri halda, digər akademik və inzibati işçilər, təhsilanlar, məzunlar, dövlət qurumları, işəgötürənlər kimi bütün maraqlı tərəflər məqsədə uyğun olaraq hərəkət edirlər. Universitetin Keyfiyyət Təminatı Sistemi İnteqrasiya Edilmiş Keyfiyyət Təminatı İdarəetmə modeli ilə idarə olunur. Bu idarəetmə sisteminin komponentləri strateji idarəetmə, proseslərin idarə edilməsi, keyfiyyətin idarə edilməsi, sənədlərin idarə edilməsi, risklərin idarə edilməsi, məmnuniyyət və əks əlaqə (məlumat tələbi, sorğu, təklif, şikayət, məmnunluq) sistemindən ibarətdir. Bu, Keyfiyyət Təminatı Sistemində maraqlı tərəflərin iştirakını artırmaq üçün yaradılmış mexanizmdir.




**Şəkil 4.1. Keyfiyyət Təminatı Sisteminin inteqrasiya edilmiş Keyfiyyət Təminatı İdarəetmə Modeli**

Gəncə Dövlət Universiteti strateji və proses idarəçiliyi çərçivəsində monitorinq fəaliyyətlərinin nəticələrini vahid keyfiyyət idarəetmə yanaşması ilə araşdırır, tövsiyələri özündə əks etdirən hesabatlar hazırlayır və davamlı təkmilləşdirmələr həyata keçirir. Bu zaman davamlı təkmilləşdirmə və davamlılıq yanaşması "Planla, İcra et, Nəzarət et, Təkmilləşdir" ("PİNT") dövrü metoduna əsaslanır. Təhsil, tədqiqat, elmi inkişaf, sosial töhfə, beynəlmiləlləşmə və inzibati proseslər "PİNT" dövrləri ilə əlaqəli sistemli və davamlı şəkildə izlənilir və təkmilləşdirilir.




**Şəkil 4.2. Keyfiyyət Təminatı Sisteminin tədbiqi, monitorinqi və qiymətləndirilməsi qaydalarının həyata keçirilməsində istifadə olunan "PİNT" metodu**

İnteqrasiya edilmiş Keyfiyyət Təminatı Sisteminin idarəetməsi çərçivəsində strateji idarəetmə, proseslərin idarə edilməsi, keyfiyyətin idarə edilməsi, sənədlərin idarə edilməsi, risklərin idarə edilməsi, məmnuniyyət və əks əlaqənin idarə edilməsinin nəticələrini vahid yanaşma ilə izləyən və koordinasiya edən Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzidir. Bu işlər Rektorun rəhbərliyi və nəzarəti ilə universitetin Strateji Planının təsdiq olunmasından sonra başlayır.

GDU-nun Strateji Planında müəyyən edilmiş məqsəd və hədəfləri fəaliyyət proqramı ilə planlaşdırmaq və icranın nəticələrini öyrənmək, monitorinq və qiymətləndirmək üçün, illik və beş ilik yekun fəaliyyət hesabatları hazırlamaq, bununla bərabər, hesabatlara uyğun nəticələrini qiymətləndirərək zəif cəhətləri aradan qaldıracaq və ya müvəffəqiyyəti daimi edəcək təcrübələri müəyyən etmək üçün Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyası (bundan sonra Keyfiyyət Komissiyası) yaradılır. Komissiyanın tərkibində universitetin fəaliyyət

sahələrinə uyğun Keyfiyyət üzrə Alt Komissiyalar və akademik və inzibati bölmələr üzrə Bölmə Keyfiyyət Komissiyaları yaradılır ki, onlarda ayrı-ayrı sahə və bölmələr üzrə qeyd edilən fəaliyyətləri həyata keçirirlər.

Keyfiyyət Komissiyası universitetin strateji gələcəyə baxış hədəfinə çatmasını dəstəkləyərək, bu prosesə regional və beynəlxalq keyfiyyət meyarları əsasında, eləcə də, akkreditasiya tələblərinin tətbiqinin davamlı qiymətləndirilməsi və monitorinqi yolu ilə rəhbərlik etmək üçün keyfiyyətin qiymətləndirilməsi, təminat və akkreditasiya işlərinin tənzimlənməsi, izləmə və icrasını yerinə yetirir.

Universitetin beş illik institusional və proqram akkreditasiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən həyata keçirilir. Akkreditasiya zamanı Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, bu Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və Nazirliyin qərar və əmrləri rəhbər tutulur.

## 5. Keyfiyyət Təminatı Sistemində nəzarət ediləcək keyfiyyət göstəriciləri

Gəncə Dövlət Universitetinin öz missiyasına uyğun olaraq müəyyən etdiyi məqsəd və hədəfləri fəaliyyət proqramı ilə planlaşdırılır və illik fəaliyyət hesabatları ilə buna nəzarət edilir. Bunlardan əlavə, universitet aşağıdakı məsələlərə diqqət yetirir:

- Tələbə qəbulunun xarakteri,
- Tələbələrin inkişafı və uğurları,
- Xarici tələbələrin sayı və kvalifikasiyası,
- Milli və beynəlxalq təhsil əməkdaşlıq sazişlərinin sayı və keyfiyyəti,
- Beynəlxalq pedaqoji heyətin sayı və ixtisası,
- İkili ixtisas və diplomlarla verilən proqramların sayı və keyfiyyəti;
- Məzunların məşğulluğu və kvalifikasiyası,
- Tədris proqramlarının qiymətləndirilməsi,
- Tədqiqatın xarakteri,
- Nəşrlərin xarakteri,
- Xidmətlərin xarakteri,
- Maliyyə resurlarından səmərəli istifadə,
- Bacarıq və resurslardan səmərəli istifadə,
- Tələbə məmnuniyyəti,
- İşçi məmnuniyyəti,
- İcma məmnuniyyəti,
- Təchizatçı məmnuniyyəti

Nəticələr universitetin əvvəlki illərdən əldə etdiyi nəticələrlə və digər universitetlərin məlumatları ilə müqayisə edilir. Alınan nəticələrə uyğun olaraq təkmilləşdirmə işləri planlaşdırılır və icra edilir.

## 6. Keyfiyyət Təminatı Sistemində nəzərdə tutulan fəaliyyət və ya hərəkətlər

1. Universitetin daxili və xarici Keyfiyyət Təminatı Sistemini strukturlaşdırmaq və keyfiyyət təminatı mədəniyyətini yaymaq üçün iştirakçı mexanizmləri, bölmələr arasında koordinasiyanı və keyfiyyət siyasətləri haqqında məlumatlandırma mexanizmlərini gücləndirmək məqsədi ilə;

- Hər bir proses üzrə, tədbirləri, məsul şəxsləri və onların addımlar üzrə məsuliyyətlərini müəyyən etmək və səlahiyyət bölgüsü aparmaq.
- Hər il daxili və xarici maraqlı tərəflərlə rəy qiymətləndirmə görüşləri keçirmək.
- Daxili və xarici maraqlı tərəflərlə məlumatlandırma və maarifləndirmə görüşləri/seminarlar təşkil etmək.
- Daxili və xarici maraqlı tərəflərdən alınan rəy və təkliflərə əsasən keyfiyyətli araşdırmalar təşkil etmək.
- Akademik və inzibati vahidlər və rəhbərlik arasında effektiv kommunikasiya şəbəkəsi yaratmaq.
- Universitetin keyfiyyət komissiyasının alt işçi qruplarının əlaqələndirilmiş işini təmin etmək üçün rüblük iclaslar təşkil etmək.
- Universitetin milli/beynəlxalq reytinqlərdə daha yüksək pillələrə çıxmasını təmin etmək üçün birlikdə iş təqvimləri yaratmaq, araşdırmaların müvafiq bölmələr tərəfindən koordinasiyalı şəkildə aparılmasını təmin etmək və nəticələri mütəmadi olaraq izləmək.
- Universitetin keyfiyyət siyasətinin və keyfiyyət alt siyasətlərinin görünürlüğünü və məlumatlılığını artırmaq, hər kəsin görə biləcəyi uyğun yerlərdə elan etmək, keyfiyyət tədqiqatları haqqında illik bülleten təşkil etmək, internet səhifəsində dərc etmək və maraqlı tərəflərə göndərmək.
- Təhsil və təlim, tədqiqat və inkişaf, sosial töhfə və cəmiyyət, beynəlmiləlləşmə və rəqabətlik, idarəetmə və xidmət proseslərində yaxşı təcrübələrin sayını artırmaq və digər universitetlərlə bölüşmək.

2. Keyfiyyət səviyyəsinin monitorinqi sistemini idarə etmək və keyfiyyət təminatı sistemi proseslərinin davamlı monitorinqini, ölçülməsini və təkmilləşdirilməsini təmin etmək üçün təlim və məsləhət xidmətləri göstərmək məqsədi ilə;

- Təhsil və təlim, tədqiqat və elmi inkişaf, cəmiyyət və sosial töhfə, beynəlmiləlləşmə və rəqabətlilik, idarəetmə və xidmət proseslərində “PİNT” dövrü metodunu təmin etmək.
- Akademik bölmələrin özünüqiymətləndirmə proseslərinin qurulmasını təmin etmək, onlara vaxtaşırı nəzarət etmək və təmin etmək.

- Hər bir bölmə rəhbərinin hər il öz bölmələri üzrə Strateji Plandakı hədəflər və hədəflərin reallaşma sürəti ilə bağlı hesabat hazırlayıb Keyfiyyət Komissiyasına göndərilməsini təmin etmək.
- Daxili və xarici maraqlı tərəflərin məmnuniyyət səviyyələrini müntəzəm olaraq ölçmək və izləmək və nəticələrin davamlı təkmilləşdirmə fəaliyyətlərində əks olunmasını təmin etmək. Bu mövzuda;
  - Tələbə məmnuniyyəti sorğusunun və təhlilinin aparılması;
  - Akademik və inzibati heyətinin məmnuniyyət sorğusunun və təhlilinin aparılması;
  - Xarici maraqlı tərəflərin məmnuniyyət sorğusunun və təhlilinin aparılması.
- Planlaşdırılmış daxili və xarici audit fəaliyyətlərinin aparılması.
- İdarəetmə görüşlərini davam etdirmək.
- Keyfiyyətin təşkili ilə bağlı görüşlərin davamlığını təmin etmək.
- Keyfiyyət prosesləri üzrə akademik və inzibati heyətin hazırlanmasını təşkil etmək.
- Keyfiyyət prosesləri ilə bağlı akademik heyəti əhatə edən təlimçilərin təlimlərini təşkil etmək.
- Proqramın akkreditasiyası çərçivəsində Keyfiyyət Komissiyasının rəhbərliyi vasitəsilə təlimlər keçirmək.
- Daxili və xarici qiymətləndirmə hesabatlarına əsasən müəyyən edilmiş təkmilləşdirməyə açıq sahələri güclü tərəflərə çevirmək üçün fəaliyyətlər təşkil etmək.
- Sosial töhfə təcrübələri üçün məlumatlandırıcı fəaliyyətlər təşkil etmək.
- Strukturların keyfiyyət komissiyalarına mütəmadi olaraq təlimlər keçirmək.
- Rəhbərlik/məsləhət xidmətləri göstərmək üçün lazımi təlim keçmiş akademik və inzibati heyəti təyin etmək.
- Beynəlxalq keyfiyyət təminatı agentlikləri ilə peşəkar əlaqələrin qurulması.

3. İnstitusional və proqram akkreditasiyası üzrə fəaliyyətlərin davam etdirilməsi və genişləndirilməsi məqsədi ilə;

- Universitetin struktur və bölmələrinə onların akkreditasiyası üzrə təlimlərin təşkil edilməsi.
- Bölmələrdə Akkreditasiya prosesini tanıtmaq və bölmələrin öz fəaliyyət planlarını və iş qrafiklərini hazırlamaq və görüşlər təşkil etmək.
- Akkreditasiya prosesi zamanı bütün struktur və bölmələrdə bölmə rəhbərinin təyin olunmasını təmin etmək.
- "Akkreditasiya Prosesi və Tədbirlər Planı"nın bütün bölmələr tərəfindən hazırlanmasını təmin etmək.
- "Akkreditasiya Özünütəhlil Hesabatı"nın bütün bölmələr tərəfindən hazırlanaraq Keyfiyyət Komissiyasına təqdim edilməsini təmin etmək.
- Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyyə və görüşlərin icrasına dair hesabat və fəaliyyət planını hazırlamaq.

## 7. Keyfiyyət Təminatı Sisteminin Təşkilatı Sxemi




## 8. Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Struktur Sxemi

